# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 268** **QƏRAR** **Bakı şəhəri, 8 iyul 2016-cı il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 19 mart tarixli 88 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət mülkiyyətinə keçirilmiş və gömrük hərraclarında satılmamış qalan, yaxud mülki dövriyyədə olmasına yol verilməyən və mülki dövriyyəsi məhdudlaşdırılmış mallar, həmçinin tez xarab olan və saxlanc müddəti keçmiş mallar barəsində sərəncam verilməsi Qaydaları"nda dəyişikliklər edilməsi haqqında

"Gömrük sistemində islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 mart tarixli 1853 nömrəli Sərəncamının 3-cü hissəsinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 19 mart tarixli 88 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, N 3, maddə 319; 2015, N 5, maddə 617) ilə təsdiq edilmiş "Dövlət mülkiyyətinə keçirilmiş və gömrük hərraclarında satılmamış qalan, yaxud mülki dövriyyədə olmasına yol verilməyən və mülki dövriyyəsi məhdudlaşdırılmış mallar, həmçinin tez xarab olan və saxlanc müddəti keçmiş mallar barəsində sərəncam verilməsi Qaydaları"nın 5-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 5.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"5.1. Tez xarab olan mallar barəsində bu qaydaların 6.8-ci və 6.9-cu bəndlərinə uyğun olaraq sərəncam verilir.".

2. Aşağıdakı məzmunda 5.4-cü bənd əlavə edilsin:

"5.4. Tez xarab olan mallar barədə sərəncam verilməsi saxlanc müddəti bitdiyi vaxtdan 24 (iyirmi dörd) saat ərzində həyata keçirilir.".

***Artur RASİ-ZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***